**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS ГОСТ 25896:2021**

İlkin nəşr
2021

# TƏZƏ SÜFRƏ ÜZÜMÜ TEXNİKİ ŞƏRTLƏRİ

# FRESH TABLE GRAPES SPECİFİCATİONS

LAYİHƏ

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS ГОСТ 25896:2021

©AZSTAND 2021

İ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

LAYİHƏ

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn

Telefon: +994125149308

Email: office@azstand.gov.az

 ©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜQƏDDİMƏ

1. Üzümçülük və şərabçılıq məhsullarının standartlaşdırılması üzrə texniki komitə AZSTAND/22 tərəfindən İŞLƏNİB VƏ TƏQDİM EDİLİB.

2. Azərbaycan Standartlaşdırma İnstitutunun__________ 2020-ci il tarixli_______________saylı ƏMRİ ilə TƏSDİQ EDİLİB və QÜVVƏYƏ MİNİB.

3. Bu standart ГОСТ 25896-1983 "Виноград свежий столовый Технические условия " standartının tərcüməsi əsasında hazırlanmışdır

4. İLK DƏFƏ TƏTBİQ EDİLİR.

5. Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2022 ildir.

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜNDƏRİCAT

İNFORMASİYA GÖSTƏRİCİLƏRİ
1. Tətbiq sahəsi...............................................................................................
2. Normativ istinadlar........................................................................................
3.Standartın təsir müddəti.................................................................................
4.Dəyişikliklərin aparılması..............................................................................
5. TEXNİKİ TƏLƏBLƏR...................................................................................
6. QƏBUL QAYDASI..........................................................................................
7. KEYFİYYƏTİN TƏYİNİ ÜSULLARI..............................................................
8. QABLAŞDIRMA, NİŞANLAMA , DAŞINMA VƏ SAXLANMA..................
ƏLAVƏ (məcburi)...........................................................................................

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

## 1.Tətbiq sahəsi

Bu standart təzə halda istehlak üçün Vitis (Vitis L.) növünə mənsub ampeloqrafik üzüm sortlarının əmtəə keyfiyyətinə, tədarükünə, daşınmasına və satışına dair texniki şərtləri müəyyən edir.

Bu standart hökumət təşkilatları, istehsalçılar, ticarət işçiləri, import və eksportçular, eləcə də beynəlxalq təşkilatlar tərəfindən istifadə edilmək üçün nəzərdə tutularaq, təzə halda istehlak edilən üzümün keyfiyyəti üzrə hazırlanan dıgər kommersiya standartları kimi ölkədaxili, dövlətlərarası və beynəlxalq ticarətin inkişafına təsir göstərir, yüksək keyfiyyətli məhsul istehsalını stimullaşdırır, istehsalçıların rentabelliyini yüksəldir və istehlakçıların maraqlarını qoruyur.

Əhalinin həyatı və sağlamlığının təhlükəsizliyini təmin etmək üçün üzümə olan tələblər 1.5 maddəsində şərh edilmişdir.

## 2.İstinad edilən normativ sənədlər

Bu standartın hazırlanmasında aşağıda göstərilən texniki-normativ sənədlərə istinad edilmişdir:

| Istinad edilmiş TNS | Maddələrin nömrəsi |
|---|---|
| QOST 10131-93 | 4.1, 4.6 |
| QOST 17812-72 | 4.1 |
| QOST 21650-76 | 4.5.2 |
| QOST 20469-75 | 4.1 |
| QOST 24597-81 | 4.5.2 |
| QOST 26683-85 | 4.5.2 |
| QOST 26927-86 | 3.5 |
| QOST 26930-86 | 3.5 |
| QOST 26934-86 | 3.5 |
| QOST 26932-86 | 3.5 |
| QOST 26933-86 | 3.5 |
| QOST 26934-86 | 3.5 |
| QOST 27198-87 | 3.3 |
| QOST 28346-89 | 4.6 |
| QOST 29181-91 | 4.6 |

LAYİHƏ

### 3. Standartın təsir müddəti

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qərarı ilə bu standartın fəaliyyət vaxtına məhdudiyyət qoyulmamışdır.

### 4. Dəyişikliklərin aparılması

1,2,3,4,5,6,7 №-li dəyişikliklər edilmiş nəşrlər mart 1986, dekabr 1986, aprel 1987, 1988 may, 1989 may, sentyabr 1990, avqust 1992-ci illərdə (İUS 6-86, 4-87, 7-87, 8-88, 8-89, 11-90, 11-92) təsdiq edilmişdir.

## 5.TEXNİKİ TƏLƏBLƏR

5.1. Təzə halda süfrə və texniki-süfrə üzüm sortlarının məhsulu istifadə edilir, lakin istehlakçı ilə razılaşma əsasında – təzə halda daşınmaya və istehlak edilməyə yararlı olan texniki üzüm sortları da istifadə edilə bilər.
(Dəyişdirilmiş mətn, dəyişiklik №1,7).
5.2. Ampeloqrafik sortlara görə üzüm 3 qrupa bölünür: birinci, ikinci və üçüncü.
Birinci və ikinci qrupa aid rayonlaşdırılmış və perspektiv üzüm sortlarının, eləcə də üçüncü qrupa aid təzə halda daşınmaq və istehlak üçün yararlı texniki üzüm sortlarının siyahısı Əlavədə verilmişdir.
(Dəyişdirilmiş mətn, dəyişiklik №7).
5.3. Üzüm keyfiyyətindən asılı olaraq 2 əmtəə sortuna bölünür: birinci və ikinci. Üzümün birinci və ikinci əmtəə sortları eyni bir ampeloqrafik sorta daxil olmalıdır.
5.4. Üzüm cədvəldə göstərilən tələb və normalara müvafiq olmalıdır.

| Göstəricinin adı | Əmtəə sortları üçün xarakteristika və normalar | | | |
|---|---|---|---|---|
| | birinci | | ikinci | |
| | boşaltma yerlərində | təyinat yerlərində | boşaltma yerlərində | təyinat yerlərində |
| Xarici görünüşü | Salxım bütövdür, ampeloqrafik sort üçün xarakterdir | | Salxım bütövdür, müxtəlif sıxlığa, forma və böyüklüyə malikdir | |
| | Gilələr təzə, yetişmiş, normal inkişaf etmiş, tam, möhkəm, təmizvə sağlamdır, xarici nəmliyi həddindən çox deyil, kənar dadı və qoxusu yoxdur.<br>1 noyabrdan (saxlanmadan sonra) etibarən soluxmuş darağa və qismən tündləşmiş (qonurlaşmış) qabığa malik giləmeyvələrin olmasına yol verilir. | | | |
| Süfrə və texniki süfrə sortlarının gilələrində | | | | |

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

| | | | | |
|---|---|---|---|---|
| şəkərliliyin miqdarı , q/100sm$^3$,<br>az olmamaq şərti ilə aşağıdakılar üçün:<br>RF, Ukrayna, Qazaxıstan (Alma-Atı vilayəti, Cambul və Taldı-Kurqan), Qırğızıstan (Çuy vadisi raronları), Gürcüstan, Azərbaycan, Moldova, Özbəkistan, Qazaxıstan (Çimkənd vilayəti), Qırğızıstan (Oş vilayəti), Tacikistan, Ermənistan, Türkmənistan: | | | | |
| 1 avqustadək | 12.0 | 12.0 | 12.0 | 12.0 |
| 1 avqustdan | 15.0 | 15.0 | 15.0 | 15.0 |
| Texniki sortlar üçün giləsində şəkərliliyin miqdarı, q/100sm$^3$<br>( az olmamaq şərti ilə) | 14.0 | 14.0 | 14.0 | 14.0 |
| Ümumi kütlədə tam olmayan salxımların miqdarı, % (çox olmamaqla) | 10.0 | 10.0 | 20.0 | 20.0 |
| Tökülmüş gilələrin miqdarı, %-lə (çox olmamaqla):<br>1 noyabra qədər<br>kişmiş sortları üçün<br>Nimrəng, Ağ tayfı, Çəhrayı tayfı, Ağ Hüseyni, digər sortlar üçün | 1.0 | 7.0 | 3.0 | 15.0 |
| 1 noyabrdan bütün sortlar üçün | 1.0 | 3.0 | 3.0 | 8.0 |
| Çatlamış gilələrin ümumi kütləyə görə faizl miqdarı, %-lə, ə (çox olmamaqla) | 3.0 | 7.0 | 8.0 | 15.0 |
| Qoralaşmış gilələrin ümumi kütləyə görə miqdarı,<br>%-lə (çox olmamaqla) | 0.5<br><br>2.0 | 2.0<br><br>2.0 | 1.0<br><br>5.0 | 4.0<br><br>5.0 |
| Pərakəndə ticarət şəbəkəsində satış zamanı | Yol verilmir. | | | |

©AZSTAND –Bütün hüquqlar qorunur

| | |
|---|---|
| çürümüş və əzilmiş giləmeyvələr | |

**Qeydlər:**

1. Həddindən artıq xarici nəmliyə malik salxımlar – yağışdan, şehdən və ya özünün şirəsi ilə islanmış salxımlardır.
   Soyuducularda və ya soyuduculu nəqliyyat vasitələrində daşınan salxımların üzərində temperatur fərqindən yaranan kondensat həddindən artıq xarici nəmlik hesab edilmir.
2. Gilələr üzərində ampeloqrafik sorta xas qəhvəyi rəngli mantarlaşmış nöqtələrin, eləcə də günəş şüaları təsirindən yaranan piqment ləkələrinin olması üzümün keyfiyyətini aşağı salmaq üçün əsas ola bilməz.
3. Bütöv olmayan salxımlar – beşdən on beşə qədər kompakt yerləşmiş giləmeyvələri olan salxımlardır.
4. Bütöv salxımlara həm də on beşdən çox kompakt yerləşmiş giləmeyvələri olan salxım hissələri aid edilir.

5. Tökülmüş giləmeyvələrə beşdən az giləmeyvəsi olan, həmçinin, ayrı-ayrı tam giləmeyvəsi olan salxım hissələri aid edilir.
   (Dəyişdirilmiş mətn, dəyişiklik № 1, 5, 7).

5.5. Üzümdə toksiki elementlərin və pestisidlərin qalıq miqdarı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş “Meyvə-tərəvəz məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər”dəki yol verilən səviyyələri ötməməlidir.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 6).

## 6. QƏBUL QAYDALARI

6.1. Üzüm partiyalarla qəbul edilir. Partiya - eyni növ və ölçüyə malik taralarda qablaşdırılan, eyni nəqliyyat vasitəsində daşınan, eyni keyfiyyət və “Bitkiçilik məhsullarında toksikantların miqdarı və pestisidlərin tətbiqi zamanı reqlamentlərə əməl edilməsi haqqında Sertifikat” forması əsasında tərtib edilən və müəyyən qayda ilə təsdiq edilən eyni ampeloqrafik və əmtəə sortuna aid üzümün hər hansı bir miqdarıdır.

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Bir nəqliyyat vasitəsində üçdən çox olmayan partiya yerləşdirildiyi hallarda, onların keyfiyyət haqqında eyni sənəddə tərtib edilməsinə icazə verilir və bu zaman hər partiya haqqında məlumatlar 2.2 maddəsinə uyğun şəkildə göstərilməlidir.

6.2. Keyfiyyət haqqında sənəddə aşağıdakılar göstərilir:

- Sənədin nömrəsi və onun verilmə tarixi
- Toksiki maddələrin  miqdarı haqqında sertifikatın nömrəsi və onun verilmə tarixi
- Partiyanın nömrəsi
- Göndərən təşkilatın adı və ünvanı
- Alan təşkilatın adı və ünvanı
- Ampeloqrafik və əmtəə sortlarına aid məhsulun adı və keyfiyyətinin təyin olunmuş göstəriciləri
- Yeşiklərin miqdarı
- Kiloqramla ifadə olunmuş brutto və netto kütlə
- Yığılma, qablaşdırılma və göndərilmə tarixləri
- Nəqliyyat vasitəsinin nömrəsi
- Daşınma müddəti, sutka ilə
- Hazırkı standartın qeyd edilməsi.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 4,7).

6.3. Üzümün keyfiyyətinin yoxlanması, qablaşdırmanın düzgünlüyü və nişanlamanın hazırkı standartın tələblərinə uyğunluğunu yoxlamaq üçün partiyanın müxtəlif yerlərindən nümumə götürülür:

- 100 yeşiyə qədər – 3 yeşikdən az olmayaraq

- 100 yeşikdən çox - hər sonrakı tam və natamam dolmuş 100 yeşiyə bir yeşik hesabı ilə əlavə.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 4,7).

6.3a. Toksiki maddələrin və pestisidlərin miqdarına nəzarət qəbul olunmuş qaydada aparılır.

6.4. Keyfiyyətin yoxlanması üzrə nəticələr bütün partiyaya şamil edilir.

6.5. Zədələnmiş və ya nəm yeşiklərdəki üzümün keyfiyyəti ayrıca yoxlanır və nəticələr yalnız bu yeşiklərdəki üzümə şamil edilir.

6.6. Keyfiyyət yoxlandıqdan sonra seçilmiş üzüm yoxlanılan partiyaya birləşdirilir.

6.6a. Noyabrın 1-dək ölkələrarası, vilayətlərarası, respublikalararası daşınmalar zamanı göndərilmə yerlərində çürümüş və əzilmiş giləmeyvələrin olmasına yol verilmir. Təyinat yerlərində noyabrın 1-dək çürümüş və əzilmiş gilələrin olması



Layihə

birinci əmtəə sortunda 7.0%-dən, ikinci əmtəə sortunda 12.0%-dən çox deyilsə, partiyanın aşağı əmtəə sortuna keçirilməsinə əsas vermir.

Ölkə, vilayət və respublika hüdudlarında daşınmalar zamanı noyabrın 1-nə qədər göndərilmə yerlərində çürümüş və əzilmiş giləmeyvələrin olmasına icazə verilmir.

Təyinat yerlərində noyabrın 1-dək çürümüş və əzilmiş giləmeyvələrin olması birinci əmtəə sortunda 3.0%-dən, ikinci əmtəə sortunda 5.0%-dən çox deyilsə, partiyanın aşağı əmtəə sortları qrupuna keçirilməsinə əsas vermir.

Noyabrın 1-dək ölkələrarası, vilayətarası, respublikalararası daşınmalar zamanı göndərilmə yerlərində çürümüş və əzilmiş gilələrin olması birinci və ikinci qrup əmtəə sortlarında 2.0%-dən çox deyilsə, partiyanın aşağı əmtəə sortuna keçirilməsinə əsas vermir.

Təyinat yerlərində noyabrın 1-dən çürümüş və əzilmiş giləmeyvələrin olması birinci qrup əmtəə sortunda 7.0%-dən, ikinci qrup əmtəə sortunda 12.0%-dən çox deyilsə, həmin partiyanın aşağı qrup əmtəə sortuna keçirilməsinə əsas vermir.

Ölkə, vilayət və respublika hüdudlarında noyabrın 1-dən daşınmalar zamanı göndərilmə və təyinat yerlərində birinci və ikinci əmtəə sortlarında çürümüş və əzilmiş giləmeyvələrin olması 5,0%-dən çox deyilsə, partiyanın aşağı əmtəə sortuna keçirilməsinə əsas vermir.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 1).

6.7. Birinci qrup əmtəə sortuna aid 1.4 və 2.6a bəndlərində müəyyənləşdirilmiş normalara cavab verdiyi halda, həmin üzüm partiyası ikinci qrup sorta aid edilir.

Ikinci qrup əmtəə sortuna aid üzüm 1.4 və 2.6a bəndlərində müəyyənləşdirilmiş normalara cavab vermədiyi halda , həmin üzüm partiyası standartın tələblərinə uyğun olmayan hesab olunur.

Hazırkı standartın tələblərinə uyğun olan üzüm 100% qəbul olunur, çürümüş və əzilmiş giləmeyvələr keyfiyyətin təyini üzrə nəticələrdən ayrı nəzərə alınır, yəni 100%-dən kənar.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 4).

## 7. KEYFIYYƏTIN TƏYINI ÜSULLARI

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

7.1. Keyfiyyətin təyini üçün 2.3 bəndinə uyğun olaraq seçilmiş üzüm çəkilir, 1.4 bəndində göstərilən qaydaya müvafiq tökülmüş, çatlamış, qoralaşmış, çürümüş və saplaqlı əzilmiş giləri olan salxımlar normadan kənar kimi sortlaşdırılır və ayrıca çəkilir.

Çəkilər 0.1 kq-dan böyük olmayan dəqiqliklə həyata keçirilir.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 1).

7.2. üzümün xarici görkəmi, qoxusu və dadı, xəstə və zədələnmiş gilələrin mövcudluğu orqanoleptik üsulla təyin edilir.

7.3. Şəkərin kütlə qatılığını təyin etmək üçün 2.3 bəndi üzrə yeşiklərdən seçilmiş üzümdə 3.1 bəndi əsasında aparılmış analizdən sonra, hazırkı standartın tələblərinə cavab verən üzümdən hər birinin çəkisi 0.3 kq-dan az olmamaqla ən azı 10 nöqtəvi nümunə seçilir.

Nöqtəvi nümunələr seçim aparmadan kütləsinə görə təqribən bərabər və müxtəlif yerlərdən götürülür.

Üzümdə şəkərliliyin miqdarının təyini QOST 27198 üzrə aparılır.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 2).

7.4. Çürümüş və əzilmiş giləmeyvələrin kütlə payı keyfiyyəti yoxlanan üzüm partiyasından seçilmiş kütləyə nisbətinin faizlə ifadəsi kimi hesablanır.

Standartın keyfiyyət tələblərinə cavab verməyən salxımların, eləcə də tökülmüş, çatlamış və qoralaşmış gilələrin miqdarı (%-lə) keyfiyyəti yoxlaılmaq üçün üzüm partiyasından götürülmüş kütlədən, çürümüş və əzilmiş giləmeyvələrin kütləsi çıxıldıqdan sonra qalan kütləyə nisbətinin faizlə ifadəsi kimi hesablanır.

Bütün hesablamalar yüzdə bir dəqiqliklə aparılır və sonra onluqlara qədər yuvarlaqlaşdırılır.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 7).

7.5. Toksiki maddələrin miqdarı QOST 26927, QOST 26930, QOST 26934 üzrə, pestisidlər isə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş üsullarla təyin olunur.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 6).

## 8.QABLAŞDIRMA, NİŞANLAMA , DAŞINMA VƏ SAXLANMA

8.1 Üzüm QOST 10131, QOST 20463, QOST 17812 üzrə yeşiklərə və texniki-normativ sənədlər üzrə çoxdövriyyəli polimer yeşiklərə qablaşdırılır.

©AZSTAND –Bütün hüquqlar qorunur 

Yeşiklər möhkəm, quru, təmiz, kənar qoxusuz olmalıdır.

Iri salxımlı sortlar qablaşdırılarkən, (Qara Cəncəl, , İtaliya, Qaraburunu, Katta-Kurqan, Nimrəng, Parkent, Sultanı, Çəhrayı tayfı, Ağ hüseyni və s.) salxımların kəsilməsinə icazə verilir.

Eyni ampeloqrafik sorta aid üzüm sıxılmadan 10.0 kq netto çəkidən çox olmayaraq QOST 10131 üzrə lotok-yeşiklərə (№1-1, 1-2 və 1-3) yığılır.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 1,5).

8.2 Nəm səthə malik üzümün qablaşdırılmasına icazə verilmir.

8.3 Çıxarılmışdır (Dəyişiklik № 1).

8.4 Hər yeşiyə aşağıdakı göstərişlər qeyd olunan etiketlər yapışdırılır:

- Göndərənin adı
- Məhsulun, ampeloqrafik və əmtəə sortlarının adı
- Yığılma və qablaşdırma tarixləri
- Partiya nömrələri
- Qablaşdıranın nömrələri
- Hazırkı standartın qeyd edilməsi.

8.5 Üzüm verilən nəqliyyata şamil olunan tez xarab olan yüklərin daşınma qaydalarına müvafiq olan bütün nəqliyyat növləri ilə daşına bilər.

Daşınma müddəti Moldova sortuna aid üzüm üçün 15 sutkanı, Pkasiteli və Bayan-şirə texniki sortları üçün 10 sutkanı, Çinuri sortu üçün 7 sutkanı ötməməlidir, təzə halda daşınmaq və istehlak edilməyə yararlı digər texniki sortların daşınma müddəti isə 6 sutkanı ötməməlidir.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 1,3,4,7).

8.5.1 Daşınmalar zamanı refrijerator vaqonlarda və avtorefrijeratorlarda temperatur rejimi 2-dən 5°C-yə qədər olmalıdır.

Xüsusiləşdirilmiş kameralar mövcud olduqda refrijeratora yüklənməzdən əvvəl üzüm 2-12°C-yə qədər soyudulur.

Dəmiryolu vaqonlarında üzüm yeşiklərinin yığılma hündürlüyü yükü göndərən tərəfindən təyin olunmalı və məhsulun tamlığı təmin edilməlidir. Tövsiyə edilən yığılma hündürlüyü 1.6-2.4 m-dir.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 1,6,7).

8.5.2 Üzümün dəmiryolu nəqliyyatı paketləri ilə daşınmasına QOST 24597 və QOST 26663 əsasında yol verilir.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Bərkidilmə və paketləmə üsulları QOST 21650 üzrə aparılır.
8.6. Saxlanmaq üçün nəzərdə tutulan üzüm QOST 10131 üzrə yeşiklərə darağı yuxarı istiqamətdə qablaşdırılır.

Üzümün uzun müddətli saxlanması QOST 28346 və QOST 29181 üzrə aparılır.

(Dəyişdirilmiş mətn, dəyişiklik № 7).

**ƏLAVƏ**

**(məcburi)**

©AZSTAND –Bütün hüquqlar qorunur 

## ÜZÜMÜN AMPELOQRAFIK SORTLARININ QRUPLAR ÜZRƏ SİYAHISI

### BİRİNCİ QRUP

| | |
|---|---|
| Ağ üzüm (tezyetişən Astraxan) | Tezyetişən Qırğız |
| Aygezard | Gəncə süfrə (Təbrizi) |
| Tezyetişən Alma-Atı | Kişmiş, ağ |
| Anait | Kardinal (Maska) |
| Anzob | Andican qara |
| Asma | Kişmiş çəhrayı |
| Tezyetişən Belqrad | Ağ-çəhrayı Boqatır |
| Vostok | Qara Kişmiş |
| Vostorq | Moldav Kişmişi |
| Tezyetişən Hissar | Köz üzüm (qalınqabıq) |
| Qara Gözəl | Üzümçülərin şahzadəsi |
| Dietik | Krım mirvarisi |
| Dekabr | Lanka |
| Dəmir qapı | Lesya |
| Lyana | Muskat Madlen |
| Şamaxı mərəndisi | Desert |
| Marinka | Masis |
| İtaliya | Arzu |
| İrşayi oliver | Moldova |
| Kaputan | Moskva çəhrayı |
| Mirvari muskatı | Aleksandr Muskatı |
| Dərbənd muskatı | Hamburq Muskatı |
| Çöl muskatı | Macar Muskatı |
| Özbək muskatı | Sultanı |
| Kəhrəba muskatı | Ağ Tayfı |
| Nimrəng | Çəhrayı Tayfı |
| Tezyetişən Yeni Ukrayna | Ağ Favorit |
| Oktyabr | Qara Xəlili |
| Perlet | Ağ Xəlili |
| Ağ Hüseyni | Çauş |
| Çauş muskatı | Ağ Şanı |

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

| | |
|---|---|
| Qara Şanı | Çernomor |

**İKİNCİ QRUP**

| | |
|---|---|
| Avqaliya | Qara Cəncəl |
| Ağadayı | Doyna |
| Ağ Aldərə | Saba mirvarisi |
| Ağ uyğur | Maharac Anteyi |
| Ağ şasla | Qara Aldərə |
| Don aqatı | Qara üzüm |
| Əskəri | Taşlı |
| Qara aldərə | Ağ Uyğur |
| Qorula | Tokun |
| Parkent | Şabaş |
| Tərbaş | Tezyetişən |
| Xətmi | Qafqaz |
| Sarı gilə | Ağ şasla |

**ÜÇÜNCÜ QRUP**

Daşınmaq və təzə halda istifadə üçün yararlı olan digər (rayonlaşdırılmış və rayonlaşdırılmamış) süfrə, texniki-süfrə, texniki sortlar

**TEXNIKI SORTLAR**

| | |
|---|---|
| Bayanşirə | Rkasiteli |
| Xərci | Soyaki |
| Tezyetişən Maqaraç | Çinuri |

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

LAYİHƏ

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

AZS QOST 25896-1983

Təzə süfrə üzümü .Texniki şərtlər


©AZSTAND –Bütün hüquqlar qorunur